2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 42 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 10 fevral 2025-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran – Masallı seçki dairəsindən Liman bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əsədov İlham İsrafil oğlunun seçkilərdə qanun pozuntularına yol verildiyini iddia edərək, bu pozuntuların araşdırılması və bununla bağlı müvafiq tədbirlərin görülməsinə dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) ünvanlanmış 10 fevral 2025-ci il tarixli 42 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Daxil olmuş müraciət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verildiyindən onu təqdim edən şəxsə geri qaytarılmalıdır.

Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran – Masallı seçki dairəsindən Liman bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əsədov İlham İsrafil oğlunun 10 fevral 2025-ci il tarixli 42 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.

4. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**